UOT 327

LƏMAN QASIMOVA
Bakı Dövlət Universiteti
lamangasimova@bsu.edu.az

İLKİN ƏSƏDLİ
Bakı Dövlət Universiteti
ilkinsdli14@gmail.com

AVROPA İTTİFAQININ YUMŞAQ GÜC STRATEGİYASININ ANALİZİ ŞƏRQ TƏRƏFDAŞLIĞI KONTEKSTİNDƏ

DOI: https://doi.org/10.36719/2708-065X/112/125-129

Məqalədə araşdırılan əsas məsələ Avropa araşdırmalarında nəzəri bax;mla yanaşı praktiki baxımdan böyük əhəmiyyət daşıyır. Söhbət Avropa İttifaqının öz ətraf mühitinə, xüsusilə də şərq qonşularına necə təsir göstərdiyi və bu ölkələri öz maraqları istiqamətində necə formalaşdırdığı məsələsindən gedir. Məqalədə Aİ-nin spesifik xüsusiyyətlərinə toxunulmuşdur. Məqalədə İttifaq yumşaq gücdən istifadə edir və bu güc daha çox onun dəyərlər sistemi, mədəni kimliyi və Şərq Tərəfdaşlığı ölkələrinə yönəlmiş siyasi təşəbbüsləri ilə əlaqələndirildiyi əks olunub. Şərq Tərəfdaşlığı təşəbbüsü 2009-cu ilin mayında Avropa Qonşuluq Siyasəti çərçivəsində irəli sürülsə də, əvvəlki siyasətin ən zəif tərəfini tərəfdaş ölkələrə yetərincə stimul və dəstəyin göstərilməməsini təkrarlamışdır. Məqalənin əsas məqsədi Şərq Tərəfdaşlığının mahiyyətini, hədəflərini və fəaliyyət mexanizmlərini təhlil etmək, eyni zamanda bu təşəbbüsü Aİ-nin regiondakı yumşaq gücünün əsas aləti kimi qiymətləndirməkdir. Avropa İttifaqının yumşaq gücünün real təsir imkanları da müzakirə mövzusu olaraq qalır. Lakin post-sovet məkanında Aİ-nin şərq qonşularına yönəlmiş siyasətinin nə dərəcədə təsirli olduğu və onun həqiqətən "yumşaq güc" kimi çıxış edib-etmədiyi sual altındadır.

Açar sözlər: Şərq Tərəfdaşlığı, yumşaq güc, Avropa Qonşuluq Siyasəti, demokratikləşmə.

Giriş. Avropa İttifaqının (Aİ) xarici siyasətində yaxın regionlarla əməkdaşlıq həmişə xüsusi yer tutub. Post-sovet məkanında təsirini artırmaq, demokratik dəyərləri təşviq etmək və sabitliyi möhkəmləndirmək məqsədi ilə Aİ 2009-cu ildə Avropa Qonşuluq Siyasəti əsasında Şərq Tərəfdaşlığı (ŞT) təşəbbüsünü yaradıb. Bu platforma Ermənistan, Azərbaycan, Belarus, Gürcüstan, Moldova və Ukrayna ilə əməkdaşlığı vahid çərçivədə cəmləşdirən əsas mexanizmə çevrilib. Məqalə Aİ-nin yumşaq güc yanaşmasına istinad edərək Şərq Tərəfdaşlığı vasitəsilə regionda formalaşdırdığı təsir imkanlarını qiymətləndirir. Burada yumşaq güc Aİ-nin sərt məcburetmə üsullarından istifadə etmədən, daha çox dəyərlər, siyasi-mədəni nümunələr və iqtisadi-diplomatik alətlər vasitəsilə təsir göstərmək bacarığı kimi izah olunur. Tədqiqatın əsas məqsədi Şərq Tərəfdaşlığının əsas ideyalarını, məqsədlərini və tətbiq vasitələrini təhlil etmək, həmçinin Aİ-nin bu modelinin post-sovet regionunda nə dərəcədə effektiv olduğu barədə müzakirə aparmaqdır.

Avropa İttifaqının xarici qonşuluq siyasətində şərq tərəfdaşlığının strateji əhəmiyyəti. Polşa və İsveçin 26 may 2008-ci ildə Avropa İttifaqına təqdim etdikləri Şərq Tərəfdaşlığı təşəbbüsündən artıq on ildən çox zaman ötüb. 2009-cu ildən etibarən bu təşəbbüs rəsmi olaraq Aİ-nin Ermənistan, Azərbaycan, Belarus, Gürcüstan, Moldova və Ukrayna ilə əməkdaşlığını müəyyənləşdirən əsas siyasi çərçivəyə çevrildi. Şərq Tərəfdaşlığının ortaya çıxması təsadüfi deyildi; bu, Avropa İttifaqının xarici siyasətində yaranmış yeni geosiyasi reallıqların və xüsusən də Aİ-nin ənənəvi inkişaf siyasətində meydana çıxan "yorğunluğun" nəticəsi idi. Belə şərait Aİ-ni mövcud inteqrasiya modelinin imkanlarından kənara çıxmağa, yeni yanaşmalar və alternativ əməkdaşlıq formatları axtarmağa sövq edirdi. Həmin dövrdə "institutsuz inteqrasiya", "üzvlük olmadan yaxınlaşma", "tam inteqrasiyadan zəif, adi əməkdaşlıqdan güclü" kimi konsepsiyalar geniş şəkildə müzakirə olunurdu. Başqa sözlə, genişlənmə siyasətinin dayanması fonunda Aİ institutlarını böyütmədən təsir imkanlarını genişləndirməyin yollarını tapmağa çalışırdı [1, s.1-2].

Aİ-nin şərq siyasətinin formalaşmasında Polşa xüsusi rol oynayırdı. Coğrafi yaxınlıq və tarixi bağlar bu ölkəni regionla bağlı məsələlərdə daha aktiv və məqsədyönlü hərəkət etməyə vadar edirdi.

Polşa diplomatiyası həm Aİ-yə üzv olmadan əvvəl, həm də üzvlükdən sonra Şərq istiqamətinin qurulması prosesində ardıcıl və qətiyyətli mövqe nümayiş etdirmişdi. Polşa üçün "şərq ölçüsü" sadəcə regional siyasət deyildi; bu, Şərqi Avropa ölkələrində islahatları təşviq etmək və regionun dəyişimini sürətləndirmək üçün əhəmiyyətli vasitə kimi görülürdü [3, s.311-315]. Polşa diplomatiyasına görə, Aİ zəif və qeyri-sabit ölkələrin modernləşməsinə təsir edən, onları demokratik dəyərlərə doğru yönləndirə bilən çevik və təsirli bir aktora çevrilməlidir. Bu siyasət əsasən "islahat", "modernləşmə" kimi anlayışlara söykənirdi. Çünki Aİ üçün öz sərhədləri boyunca sabit, davamlı və rifahlı dövlətlərin mövcudluğu strateji əhəmiyyət daşıyırdı. Şərq Tərəfdaşlığı işə başladıqdan sonra Aİ regiona yumşaq güclə təsir göstərdiyini açıq şəkildə ortaya qoyurdu. Yumşaq güc klassik mənada zor tətbiq etmədən cəlbedicilik vasitəsilə istədiyin məqsədə çatmaq başqa aktorları da eyni nəticəni arzulamağa yönəltmək kimi izah olunur. Bu mənada Şərq Tərəfdaşlığı Aİ üçün təkcə siyasi çərçivə yox, həm də dəyərlərin, idarəetmə standartlarının və normativ modellərin şərq ölkələrinə ötürülməsi üçün bir cəlbedicilik platforması idi. Aİ tərəfdaş dövlətlərə siyasi və iqtisadi dəstək göstərsə də Avropa Qonşuluq Siyasətinin nəticələri demokratiya və hüququn aliliyi sahəsində gözlənilən qədər güclü olmadı. Bu tədqiqat bir neçə əsas yanaşmaya əsaslanır. Birinci son illərdə baş verən müxtəlif böhranlara baxmayaraq, Avropa İttifaqı hələ də yumşaq gücə sahib beynəlxalq aktor kimi qalır və bu gücdən istifadə edərək regionda sülhün, sabitliyin və demokratik proseslərin irəliləməsinə töhfə verməyə çalışır. Dəyərlərə söykənən yumşaq güc siyasəti Aİ-nin özünü regional güc kimi təqdim etməsində mühüm rol oynayır. İkinci yanaşma ondan ibarətdir ki, Şərq Tərəfdaşlığının formalaşması Aİ-nin region ölkələrinə təsir göstərmək, onların siyasi düşüncəsinə təsir etmək və demokratik inkişafı təşviq etmək niyyətini əks etdirir. Aİ bu ölkələrə real üzvlük imkanı verə bilmədiyi üçün, daha çox ümumi siyasi mühitin formalaşdırılmasına yönəlir və bunu müxtəlif diplomatik alətlər və yumşaq güc mexanizmləri vasitəsilə həyata keçirir. Üçüncü yanaşma isə yumşaq gücün Aİ-nin Şərq siyasətində xüsusi yer tutduğunu göstərir. Sərt güc imkanlarının məhdudluğu Aİ-ni regionda daha çox dialoqa əsaslanan, qarşılıqlı anlaşma və könüllü əməkdaşlıq üzərində qurulan təsir metodlarına yönəldir.

Şərq tərəfdaşlığı və Avropa İttifaqının "Yumşaq güc" siyasəti. Yumşaq güc beynəlxalq nizamın formalaşmasında ortaya çıxan yeni meylləri göstərir. Bu dəyişikliklər nəticəsində xarici siyasətdə sərt gücün tətbiqi məhdudlaşdırıldı, qanunvericilik və beynəlxalq rejimlərin rolu artdı, yəni beynəlxalq təhlükəsizliyin təmin edilməsində yumşaq gücün əhəmiyyəti yüksəldi. Yumşaq güc Qərbin qeyri-hərbi və ya asimmetrik təhdidlərə, məsələn, terrorizm, kiberhücüm, kütləvi qırğın silahlarının yayılması, millətçilik, iqtisadi böhranlar, iqlim dəyişiklikləri və təşkilatlanmış cinayətkarlığa cavab olaraq ortaya çıxmışdır.

Avropa İttifaqı kontekstində yumşaq güc yanaşması onun qlobal siyasətdəki imkanlarını anlamağa və qiymətləndirməyə şərait yaradır. Məqalədə Şərq Tərəfdaşlığı ölkələrinə münasibəti araşdırmaq üçün yumşaq güc konseptindən istifadə olunması onun spesifikliyinə və Aİ-nin regiondakı fəaliyyətini düzgün əks etdirməsinə görədir. Bu yanaşma digər nəzəriyyələrə nisbətən daha çevik və geniş tətbiq oluna bilir, həmçinin vətəndaş və normativ güc anlayışlarını da əhatə edir.

Aİ-nin qonşu ölkələrdəki siyasəti və Şərq Tərəfdaşlığı təşəbbüsü xarici münasibətlər sahəsinə aiddir, buna görə də yumşaq güc Aİ-nin təsirini göstərən əsas vasitə hesab edilir. J.S. Nye-yə görə yumşaq güc mədəniyyət, dəyərlər və siyasət vasitəsilə Aİ-nin cəlbediciliyini və maraqlarını nümayiş etdirməyin bir yoludur. Yumşaq güc hələ regiondakı siyasətin geniş və sistemli təhlili üçün əsas metod kimi geniş istifadə olunmayıb [2].

Yumşaq gücün təhlilində əsas fərziyyələr göstərir ki, subyekt sülhsevər və qeyri-məcburi vasitələrdən istifadə edərək siyasi, diplomatik və mədəni sahələrdə təsir göstərə bilər. Bu onun xarici mühiti formalaşdırmaq qabiliyyəti, ümumi qəbul edilmiş dəyərlərə əsaslanması, demokratik prinsipləri təşviq etməsi, beynəlxalq münasibətlərdə ideoloji təsir yaratması (normativ güc), mədəni cazibə ilə diqqət çəkməsi və effektiv xarici siyasət aparması kimi imkanları əhatə edir.

Avropa İttifaqının post-sovet məkanında tətbiq etdiyi yumşaq güc çoxşaxəlidir və yalnız siyasi təsirlə məhdudlaşmır. Bu həm diplomatik və iqtisadi əməkdaşlığı, həm mədəniyyət və vətəndaş cəmiyyəti sahəsində təşəbbüsləri, həm də regiondakı münaqişələrdə vasitəçilik və vahid mövqe nümayiş etdirməyi əhatə edir. Kontekstdə Aİ-nin siyasəti geniş mənada Avropa standartlarının təşviqini, asso-

siasiya sazişləri və dərin sərbəst ticarət zonaları vasitəsilə iqtisadi əməkdaşlığı, vizaların liberallaşdırılması planlarını, mədəniyyət və vətəndaş cəmiyyətinin inkişafını dəstəkləməyi özündə birləşdirir.

Yumşaq güc Aİ üçün yalnız alət deyil, həm də onun beynəlxalq arenadakı digər fəaliyyət mexanizmlərinin təbii və məntiqli davamı kimi qiymətləndirilir. Bu yanaşma Aİ-nin təsir potensialını genişləndirir, onun qonşu regionlarda nüfuzunu artırır və digər beynəlxalq aktorlarla, xüsusilə Rusiya ilə rəqabət qabiliyyətini gücləndirir.

Avropa İttifaqının xarici siyasətindəki özəlliklər onun liberal yanaşmaya əsaslanması ilə bağlıdır və bu, araşdırmalar üçün nəzəri baza rolunu oynayır. Aİ-nin əsas məqsədi qonşu ölkələrin demokratikləşməsini və sabitləşməsini təmin etməkdir və bunu yumşaq vasitələr siyasi, diplomatik və iqtisadi alətlər və şərtlilik prinsipləri ilə həyata keçirir. Bu yanaşma Qərb modelinin, yəni bazar iqtisadiyyatı və liberal demokratiyanın ixracı ilə bağlıdır və beynəlxalq münasibətlərdə liberal nəzəriyyə ilə üst-üstə düşür.

Yumşaq güc Aİ-nin regional siyasətinin vacib elementidir, lakin təşkilatın həyata keçirdiyi təşəbbüslər məsələn, Şərq Tərəfdaşlığı və Avropa Qonşuluq Siyasəti sadəcə yumşaq gücün təzahürü kimi qiymətləndirilə bilməz. Yumşaq güc Aİ-nin qonşu regionlarda nüfuz sahəsi yaratmaq və digər beynəlxalq aktorlarla, xüsusilə Rusiya ilə rəqabət aparmaq üçün istifadə etdiyi bir vasitədir. Bu yanaşma K.J. Holstie tərəfindən formalaşdırılmış beynəlxalq təsir nəzəriyyəsi ilə uyğunluq təşkil edir və realizm prinsiplərini nəzərə alaraq liberal yanaşmadan fərqlənir.

Aİ ənənəvi hərbi güc kimi tanınmasa da, onun fəaliyyətində əhəmiyyətli dəyişikliklər müşahidə olunur. Təşkilat yalnız sülh təşəbbüslərini (vətəndaş vasitələri ilə) təşviq etməkdən çıxaraq, qlobal səviyyədə nüfuz qazanmaq və rəqabət aparmaq üçün hərəkət edən bir quruma çevrilir. Bu dəyişiklik 2016-cı ilin iyununda qəbul edilmiş Aİ Qlobal Strategiyasında yumşaq gücün sərt güc vasitələri ilə dəstəklənməsinin vacibliyi ilə özünü göstərir. Aİ xarici siyasətini ya "yeni sahələr" üzərində, ya da Avropa Qonşuluq Siyasəti və Şərq Tərəfdaşlığı çərçivəsində həyata keçirir, qonşu ölkələrlə iqtisadi və siyasi əlaqələri gücləndirərək təsir dairəsini genişləndirməyə çalışır. Eyni zamanda, demokratik dəyərləri yaymaqla öz təhlükəsizliyini təmin etməyə çalışarkən, qonşuların sabitliyini də qorumağa çalışır.

Nəticə. Avropa İttifaqının Şərq Tərəfdaşlığı təşəbbüsü, təşkilatın qonşu regionlarda təsir imkanlarını yumşaq güc vasitəsilə genişləndirmək, demokratik dəyərləri və idarəetmə standartlarını təşviq etmək məqsədini daşıyan strateji alət kimi çıxış edir. Polşanın təşəbbüsün formalaşmasında oynadığı aktiv rol, coğrafi və tarixi bağlardan irəli gələn regional maraqların ifadəsi kimi, Aİ-nin yumşaq güc siyasətinin effektivliyini artırmışdır. Aİ-nin yumşaq güc siyasətinin təsiri qismən uğurlu olub. Qonşu ölkələrdə həyata keçirilən islahatlar, xüsusən hüquq, sosial ədalət və hesabatlılıq sahəsində müəyyən müsbət dəyişikliklər Aİ-nin normativ və diplomatik təsirinin nəticəsi kimi qiymətləndirilə bilər. Lakin bu dəyişikliklər yalnız Aİ-nin müdaxiləsindən deyil, həmçinin yerli daxili islahatların təsirindən də qaynaqlanır. Ukrayna, Gürcüstan və Moldova kimi ölkələr assosiasiya və sərbəst ticarət sazişlərindən sonra qismən müvəffəqiyyət göstərsələr də Aİ-nin qeyri-hərbi və normativ yanaşması bütün gözləntiləri tam olaraq qarşılaya bilmir. Regionda Aİ-nin təsirini Rusiya tərəfindən həm yumşaq, həm də sərt güc vasitələrinin istifadəsi çətinləşdirir və idealist yumşaq güc paradigmalarının məhdudiyyətlərini ortaya qoyur. Aİ yalnız diplomatik və iqtisadi alətlərlə deyil, həm də qarşılıqlı təsir və qarşıdurmalardan ibarət mürəkkəb geosiyasi kontekstdə fəaliyyət göstərir. Şərq Tərəfdaşlığı və Aİ-nin yumşaq güc strategiyası təşkilatın qonşu regionlarda çevik, adaptiv və dəyərlərə əsaslanan təsir mexanizmi kimi fəaliyyət göstərdiyini göstərir. Aİ-nin məqsədi qonşu ölkələrdə demokratikləşməni və sabitliyi təşviq etmək olsa da, bunun uğuru regional aktorların daxili şəraitinə və digər beynəlxalq təsirlərə bağlıdır. Aİ yumşaq güc vasitələrindən istifadə edərək regional nüfuzunu artırır, qarşılıqlı əməkdaşlığı təşviq edir və digər beynəlxalq aktorlarla rəqabət qabiliyyətini gücləndirir, lakin təsir imkanları idealist nəzəri çərçivələrlə tam məhdudlaşmır.

ƏDƏBİYYAT

1. Kasčiūnas L., Šukytė D., 2013, The future of the EU's Eastern Partnership – challenges and opportunities for Lithuania's foreign policy, Eastern Pulse, Eastern Europe Studies Centre, No.3, Vol.48, p.1-2.
2. Manners I., 2002, Normative Power Europe: a Contradiction in Terms? Journal of Common Market Studies, No.2, Vol.40.

3. Piskorska B., 2017, Soft power w polityce Unii Europejskiej wobec państw Partnerstwa Wschodniego, Lublin 2017
4. Piskorska, B. (2018). The Eastern Partnership – A challenge for the EU's soft power in international relations. In Modelling the New Europe (Issue 26, pp. 78–94). On-line Journal.
5. Shared Vision, Common Action: A Stronger Europe. A Global Strategy for the European Union's Foreign and Security Policy, June 2016, https://europa.eu/globalstrategy/sites/globalstrategy/files/eugs_review_web.pdf [Accessed on: 4.04.2018].

ЛЯМАН ГАСЫМОВА
Бакинский государственный университет

ИЛЬКИН АСАДЛИ
Бакинский государственный университет

АНАЛИЗ СТРАТЕГИИ МЯГКОЙ СИЛЫ ЕВРОПЕЙСКОГО СОЮЗА В КОНТЕКСТЕ ВОСТОЧНОГО ПАРТНЕРСТВА

Основная проблема, рассматриваемая в статье, имеет большое практическое значение для европейских исследований, как в теоретическом, так и в практическом плане. Она касается вопроса о том, как Европейский союз влияет на своё окружение, особенно на восточных соседей, и формирует эти страны в соответствии со своими интересами. Статья затрагивает особенности ЕС. Отмечено, что Союз использует «мягкую силу», которая в большей степени связана с его системой ценностей, культурной идентичностью и политическими инициативами, направленными на страны Восточного партнёрства. Хотя инициатива «Восточного партнёрства» была выдвинута в мае 2009 года в рамках Европейской политики соседства, она повторила наиболее слабую сторону предыдущей политики – отсутствие достаточных стимулов и поддержки для стран-партнёров. Основная цель статьи – проанализировать сущность, цели и механизмы действия «Восточного партнёрства», а также оценить эту инициативу как основной инструмент «мягкой силы» ЕС в регионе. Реальный потенциал воздействия «мягкой силы» Европейского союза также остаётся предметом дискуссий. Однако возникает вопрос, насколько эффективна политика ЕС в отношении своих восточных соседей на постсоветском пространстве и действительно ли она действует как «мягкая сила».

Ключевые слова: Восточное партнерство, мягкая сила, Европейская политика соседства, демократизация.

LAMAN GASIMOVA
Baku State University

ILKIN ASADLI
Baku State University

ANALYSIS OF THE EUROPEAN UNION'S SOFT POWER STRATEGY IN THE CONTEXT OF THE EASTERN PARTNERSHIP

The main issue examined in the article is of great practical importance in European studies, both theoretically and practically. It concerns the question of how the European Union influences its environment, especially its eastern neighbors, and shapes these countries in line with its interests. The article touches upon the specific features of the EU. The article reflects that the Union uses soft power, and this power is more closely linked to its value system, cultural identity, and political initiatives aimed at the Eastern Partnership countries. Although the Eastern Partnership initiative was put forward in May 2009 within the framework of the European Neighborhood Policy, it repeated the weakest point of the previous policy - the lack of sufficient incentives and support for partner countries. The main purpose of the article is to analyze the essence, goals, and mechanisms of action of the Eastern Partner-

ship, and at the same time to evaluate this initiative as the main instrument of the EU's soft power in the region. The real impact potential of the European Union's soft power also remains a subject of debate. However, it is questionable how effective the EU's policy towards its eastern neighbors is in the post-Soviet space and whether it truly acts as a "soft power".

Keywords: Eastern Partnership, soft power, European Neighborhood Policy, democratization.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 06 yanvar 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 29 yanvar 2026-cı il.
Rəyçilər: s.ü.f.d.Nuran Məmmədov, s.e.d. Adil Mirabdullayev.